UOT: 811.512.162

ÜLKƏR İBRAHİMOVA[*]

# EPİQRAFİK ABİDƏLƏRDƏ İŞLƏNƏN ADLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

**XÜLASƏ**

Məqalədə Azərbaycan epiqrafik abidələrində müşahidə olunan antroponimləin üslubi xüsusiyyətlərindən bəhs olunur. Epiqrafik abidələrin linqvistik xüsusiyyətləri bu vaxta qədər tədqiq olunmadığından epiqrafik mətnlərdə işlənən antroponimlərin üslubi xüsusiyyətlərinin tədqiqi də aktuallığı ilə diqqəti cəlb edir. Bu istiqamətdə aparılan tədqiqatlar həm ümumilikdə tarixi üslubiyyat məsələləri, həm də epiqrafik mətnlərin linqvistik xüsusiyyətlərinin öyrənilməsi baxımından maraq doğurur. Epiqrafik mətnlərdə antroponimlərin təkrarı, konnotativ məzmun qazanması, sinonimlik, eyni adın müxtəlif variantlarının işlənməsi, antonimlik, antonomasiya kimi üslubi priyomlardan istifadə olunur.

Beləliklə, epiqrafik abidələrdə işlənən antoponimlər birbaşa funksiyası ilə yanaşı, qazandığı yeni məna çalarları hesabına üslubi keyfiyyət qazanaraq mətnin daha təsirli, məzmunlu və üslubi baxımdan rəngarəng olmasını – yeni üslubi effektin meydana çıxmasını təmin edən vasitə kimi çıxış edir.

***Açar sözlər:*** *üslubi xüsusiyyətlər, antonomasiya, onimlər, epiqrafika, antroponimik konsept*

Müasir dövrdə xüsusi adların funksionallığı ilə bağlı maraq doğuran istiqamətlərdən biri onların üslubi imkanları məsələsidir. Antroponimlərin işlənmə tezliyi, funksionallıq imkanları, müxtəlif sahələrdə fərqli tətbiq göstəriciləri onların fərqli üsluba malik mətnlərdə, eləcə də epiqrafik mətnlərdə müşahidə olunan üslubi çalarlarının tədqiqini aktuallaşdırır. Bu istiqamətdə aparılan tədqiqatlar adların nəinki epiqrafik mətnlərdə, eləcə də ümumilikdə işlənmə xüsusiyyətlərini və bununla bağlı fərqli incə məqamları müəyyən etmək baxımından maraq kəsb edir.

Epiqrafik mətnlərdə işlənən antroponimlərin forması, struktur xüsusiyyətləri, səs tərkibi antroponimlərin real modelləri ilə üst-üstə düşür, xüsusi fərq olmadan uyğun olması ilə diqqət çəkir. Lakin nəzərə almaq lazımdır ki, antroponimlər bədii mətnlərdə olduğu kimi, epiqrafik mətnlərdə də insanların adlandırılmasına xidmət etməklə yanaşı, həm də üslubi çalara malik olur, obrazların, eləcə də ümumilikdə mətndə çatdırılması nəzərdə tutulan ideyanın səciyyələndirilmə vasitəsi kimi çıxış edir. Antoponimlərin üzərinə götürdüyü üslubi "yük" müxtəlif linqvistik üsul və vasitələrlə ifadəsini tapır ki, bu informasiyanın çatdırılmasında xüsusilə səs tərkibi – sözdəki fonemlərin akustik xüsusiyyətləri, leksik səviyyə ilə bağlı fərqli yanaşmalar, semantik incəliklər, eləcə də morfoloji və sintaktik göstəricilərin daxili çəkisi mühüm əhəmiyyət daşıyır. Başqa sözlə, "Poetik mətnlərdə işlənən xüsusi adlar fonetik, semantik və morfoloji baxımdan daxili motivasiyaya" malik olur [Пузырев А.В., 1999, S. 43]. Hər bir mətnin, ümumiyyətlə çatdırılan informasiyanın praqmatik baxımdan motivasiyaya malik olduğunu nəzərə alsaq, bədii, eləcə də epiqrafik mətnlərdə işlənən antroponimlərin üslubi çalar və ya motiv daşıyıcısı olması, "mətnə xüsusi kolorit, bəzi hallarda isə ayrıca məna qazandırması" [Горбаневский М.В., 1985, s.120] heç də təsadüfi hal kimi qiymətləndirilməməlidir.

Epiqrafik mətnlərdə adın üslubi çalar qazandığı ifadə formalarından biri kimi eyni obyektlə bağlı müxtəlif variantların meydana çıxması halı çıxış edir. Adın və ya onun müəyyən elementinin dəyişikliyə uğrayaraq işlədildiyi belə məqamlarda ad dəyişikliyin ifadə olunduğu formanın məzmununa uyğun üslubi keyfiyyət qazanmış olur. Adın qısaldılmış şəkildə və ya əksinə, müəyyən əlavələrlə verilməsi də epiqrafik mətnlərdə üslubi rəngarəngliyin göstəricisi kimi diqqəti cəlb edir.

"... və sahib əz-Zaman və yol göstərən *Məhəmməd Mehdiyə...* " [Неймат М.С., 2011., s.133].

"... *Məhəmməd Mehdi Sahib əz-Zamanı* xeyir-dua et! Qiyamət gününə qədər ona və onların hamısına Allahın salamı və salavatı olsun. Hər iki dünyanın rəbbinə həmd olsun... Əmir əl-möminin dedi" [Неймат М.С., 2011., s. 117].

[*]AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi; Filologiya üzrə fəlsəfə doktoru, dosent; ismayilzulfiyye@yahoo.com

Bəzi hallarda adın birbaşa deyil, həmin şəxsə işarə olunmaqla fərqli şəkildə ifadəsinə təsadüf edirik: "...Ya Əli! *Əl-Həsən və Əl-Hüseyn*!" [Неймат М.С., 2011.,, s.209].

"*Peyğəmbərə* və Fatiməyə və *peyğəmbərin nəvələrinə* ..." [Неймат М.С., 2011., s.133].

Antroponimlərin mətndə üslubi vasitə kimi çıxış etməsinin göstəricilərindən biri də adların sinonimliyinə təsadüf olunmasıdır. Epiqrafik mətnlərdə tez-tez təsadüf olunan belə məqamlardan biri Məhəmməd peyğəmbərin adı ilə bağlıdır:

"... Ey *Məhəmməd*, mənə mərhəmət qazanmağa kömək et..." [Неймат М.С., 2008, s.120].

"... rəhmətlik, bağışlanmış müqəddəs Nəzərin oğlu, əsli Qazaxlı, rəcəb əl-mürəccəb ayının beşindən sonra *Nəbi* (peyğəmbər) tarixinin min iki yüz yetmiş ikinci ilində Rustov kəndində vəfat etmişdir" [3, s.120].

"...*Qüreyşi peyğəmbərin* hicrətindən min üç yüz iyirmi səkkizinci il" [Неймат М.С., 2011., s.191].

"... bundan sonra kim pis niyyətlə bu murdar işə (yəni abidəni dağıtmağa) qarışsa, Allahın və *onun Rəsulunun* lənətinə gələcəkdir" [Неймат М.С., 2011., s.123].

Göründüyü kimi, Məhəmməd, Nəbi, Qüreyşi peyğəmbəri, Allahın Rəsulu kimi ifadələr təkrarçılıqdan qaçmaq məqsədilə işlədilmişdir.

Digər bir nümunədə eyni şəxs fərqli status baxımından sadalama ilə təqdim olunur:

"... Şəkili axund *Hacı Əsgərin qızı*, polkovnik Mirzə Fətəli *Axundovun qadını*, rəhmətlik, bağışlanmış, mömin tanınmış nəsildən olan *Tubi xanım*ındır" [Неймат М.С., 2011., s.187].

Antroponimlərlə bağlı sinonimlik əsasən tavtologiyadan qaçmaq vasitəsi kimi istifadə olunsa da, dildə antroponim yaradıcılığı ilə bağlı törədicilik imkanlarını nümayiş etdirməsi baxımdan da xüsusi əhəmiyyət kəsb edir. Antroponimlərin sinonimliyi bir çox ekstralinqvistik hadisələrin daşıyıcısı olmaqla da maraq doğurur – belə ki, bu sözlər xalqın mentaliteti, psixologiyası, sosial-iqtisadi, mədəni səviyyəsi, ətraf aləmi dərki – dünyagörüşü, mədəni əlaqələri ilə bağlı məqamları özündə əks etdirir.

Epiqrafik mətnlərdə təsadüf olunan üslubi məqamlardan biri də adların müəyyən münasibət bildirən əlavələrlə işlənməsidir. Bu üsulla adı çəkilən şəxsə işarə olunur, onun təvazökarlığı, şöhrəti, igidliyi, əsil-nəcabəti diqqətə çatdırılır:

"Mərhum, bağışlanmış Hacı Qaraman Əhmədin oğlu, *həqir, fəqir Məhəmməd* bina etdirmişdir..." [Неймат М.С., 2011., s.105].

"... ən böyük xaqan, ən əzəmətli padşah *zəfər atası, qalibiyyət atası Şah Abbas əl-Hüseyninin* – Allah onun hakimiyyətini əbədiləşdirsin – hakimiyyəti zamanı..." [Неймат М.С., 2011., s.93].

"... Bu qəbir rəhmətlik, günahları bağışlanmış alim (ağıllı) Xurşud Banunundur... *Zal (qocaman) Xəlilin* şərəf qutusunun yeganə gövhəri qoparıldı, indi torpaqla yeksandır" [Неймат М.С., 2011., s.109].

"... bu qəbir yüksək dərəcəli Hüseyn xanın qızı, rəhmətlik, bağışlanmış, *ləyaqətli cənab Fatimə Bəyimindir*" [Неймат М.С., 2011., s.143].

Antroponimlərdən antonimlik yaradan vasitə kimi istifadə olunmaqla xüsusi üslubi fiqur yaradılır:.

"Əbədi Allahın lütfi xanların xanı halına aid oldu. Heydər silsiləsinin o xadimi cənab Nəvvab Şeyxəli xan buyurdu ki, bu xarab olmuş mədrəsəni abad eləsinlər. Həm də qəsbkarların əlindən Kəbəni bütpərəstlərin əlindən alan kimi aldılar. Əyər bundan sonra kim qəsb eləsə, Allahdan ona çoxlu lənət olsun! ..." [Неймат М.С., 2008, s.111].

Bu üslubi vasitələrdən istifadədə başlıca məqsəd, təbii ki, emosionallığın artırılmasıdır. Belə üsullardan biri kimi adın təkrarlanması diqqəti cəlb edir:.

"Möcüzələr yaradan Əlini çağır. Sən onda bəlalardan xilaskarını taparsan. Sənin valiliyinin köməyilə bütün kədər və qüssələr keçib gedər. *Ya Əli! Ya Əli! Ya Əli!"* [Неймат М.С., 2008, s.94].

Bəzi hallarda antroponimlərin işlənməsində pərəstiş, heyranlıq kimi çalarların ifadəsi diqqəti cəlb edir ki, bu məzmun çaları bütövlükdə kontekstdə izahını tapır.

"... Əyər *Əli* məhəbbətini qazanmaq ... *Əli Əsğərə*... Əlini yad etmək xatirinə, *Əli*, Həsən və Hüseyn ..., *Əli Əkbər* xatirinə üəkdən duaların qəbul olunması üçün çalış" [Неймат М.С., 2008, s.105].

Antroponimlərdən üslubi vasitə kimi istifadə olunması üsullarından biri də antonomasiya hadisəsinin tətbiqidir. Metonimiyanın bir növü kimi qəbul olunan antonomasiya [Гальперин

И.Р., 2008., s.135] zamanı məlum obrazla qarşılaşdırma aparılır:

"... Qan tökmək məqamında *Heydər kimi* güclüydü. Giv, Qovdərə və Rüstəmə bənzəyirdi" [Неймат M.C., 2008, s.72].

Antroponimlərin mətndə üslubi imkanları kifayət qədər genişdir. Təkrar, ironiya, antonomasiya kimi üsullar müəllifin məharətinin göstəricisi kimi diqqəti cəlb edir. Antroponimlərin emosional-ekspressiv baxımdan rəngarəngliyi onların bədii mətndə, eləcə də xüsusi emosional çalarlarla zəngin olan epiqrafik mətnlərdə istifadəsini aktuallaşdırır.

Adların üslübi səciyyə qazanmasında onların meydana gəlmə üsulu və tərkibi mühüm rola malikdir. Adətən mürəkkəb quruluşa malik antroponimlər komponentlərinin daşıdığı məna yükünə uyğun üslubi çalarlar qazanır. Adların tərkib hissəsi kimi çıxış edən komponentlər fərqli onomastik laya məxsus leksemlərdən - etnonim, titul, ləqəb və digər söz qruplarından ibarət ola bilər.

Epiqrafik abidələrdə antroponimlərdən həm təzad yaratmaq, həm də ənənə və tarixi bağları əks etdirmək məqsədilə istifadə olunur. Tarixən yaşamış məşhur insanlarla müasir insanları müqayisədə verməklə mətndə nəsillərarası əlaqə məsələsi qabardılır. "İnsan adları ilə onun mövcud olduğu cəmiyyətin ənənələri arasındakı sıx əlaqə ona gətirib çıxarmışdır ki, hər bir milli kollektivdə adların seçimi, işlədilməsi ilə bağlı xüsusi ənənələr, sevimli adlar mövcuddur" [Линко Т. В., 1986., s.38].

"Təsviri məzmun və təsviri informasiya daşıyan xüsusi adlar digər sözlərdən bədii ədəbiyyatdakı metaforlaşma səviyyəsi və üslubi keyfiyyətlərinə görə fərqlənir" [Бегматов Э., 1988., s.14]. Belə adlar xalqın təfəkküründə müəyyən iz buraxaraq doğma obrazlara çevrilir və xüsusi üslubi çalar qazanır. Belə olduqda antroponimlər nominativ mənasında yox, xüsusi metaforik formada işlədilir və üslubi funksiya daşıyır. V. Kuxarenko qeyd edir ki, xüsusi ad bədii mətnə semantik baxımdan natamam şəkildə daxil olur, lakin ondan semantik cəhətdən zənginləşmiş, geniş assosiativ məna çalarına malik siqnal şəklində çıxır [Кухаренко B.A., 1988. s.131].

Beləliklə, özünəməxsus bədii konnotativ məzmun qazanan antroponimlər praqmatik komponent hesabına öz semantikasının əhatə dairəsini genişləndirərək yeni üslubi çalarlar qazana bilir. Mətndə öz semantik potensialını aktuallaşdıran antroponim müxtəlifyönlü üslubi, emosional-ekspressiv mənalar ifadə etmək və funksionallıq istiqamətlərini genişləndirmək imkanı əldə edir.

Mətndə antroponimlər adlandırma və ya obyektin işarə olunmasından başqa, müəllifin obraza, şəxsə münasibətinin ifadə olunması məqsədilə fərqli üslubi priyomlardan istifadə olunmaqla verilə bilər. Bu məqsədlə xüsusi adlar müəyyən dəyişikliklə verilir: yaxınlıq, doğmalıq ifadə etmək üçün ada kiçiltmə və ya əzizləmə şəkilçiləri əlavə oluna bilər.

Linqvistik və ekstralinqvistik amillərin əks olunduğu antroponimlər özünəməxsus semantik struktura malik olmaqla leksik-semantik kateqoriya kimi ikincili nominasiyada fərqli məzmun qazanmaq imkanına malik olduğundan üslubi çalar qazana bilir. Sözdə semantik səviyyədə baş verən dəyişiklik fonetik, morfoloji və ya semantik baxımdan motivlənmiş olur. Xüsusi üslubi potensial daşıyan söz digərlərindən fərqli olaraq daha mürəkkəb fikirləri ifadə etmək imkanına malik olur.

Epiqrafik mətnlərdə işlənən adların təhlili göstərir ki, mətndə antroponimlərin funksionallığı adla mətnin xüsusiyyətlərinin qarşılıqlı təsirindən meydana çıxan keyfiyyətlərlə səciyyələnə bilər. Bu sözlər bir tərəfdən mətnin məna və struktur baxımdan formalaşması, obrazlılıq yaradan fərqli üslubi effektlərin, emosional və üslubi çalarların meydana çıxmasına xidmət edən vasitə kimi diqqəti cəlb edirsə, digər tərəfdən mətn özü adın semantik strukturunun müəyyənləşməsində əhəmiyyətli rola malikdir. Deməli, mətndə adların ümumi kontekstdən asılılığı onların üslubi istiqamətdə törədicilik imkanlarını müəyyən edən amillərdəndir. Kontekstdə adlarla digər elementlərin qarşılıqlı münasibəti müxtəlif üsullarla ifadə olunmaqla fərqli məzmun səciyyəsi daşıyır. Belə ki, bəzən bu münasibət gözləniləşin əksinə olaraq fərqli mənanın və ideyanın ortaya çıxması şəklində təzahür edərək təzad yaradılmasına xidmət edir. Daxili məzmunda, formal əlamətlərdə əks olunan belə məzmun qazanan sözlər üslubi çalarla yanaşı, həm də yüksək assosiativliyə malik olması ilə diqqət çəkir. Nəzərdən qaçırmaq olmaz ki, xüsusi adlar həm də yerli və milli koloritin ifadəçisi, tarixi dövrün təmsilçisi kimi çıxış edir.

Epiqrafik mətnlərdə işlənən antroponimlərin təhlili bir çox hallarda sözün üslubi imkanlarını müəyyən etmək üçün əsas verən daxili məzmun potensialını üzə çıxarmaqda əhəmiyyətli mənbələrdəndir. Materialın təhlili göstərdi ki, adların semantik potensialı onların məlumat yükünü müəyyən edir: məsələn, xüsusi semantik çəkiyə malik ləqəblər bu baxımdan fərqlənir. Bir yandan konkret şəxsin adlandırılmasına, ona işarə olunmasına xidmət edən belə sözlər digər tərəfdən o şəxslərə qarşı emosional münasibətin göstəricisi kimi çıxış edir.

Adlarda əlavə məzmun çalarının aktuallaşması dildə mövcud çoxmənalılıqdan qaynaqlanmaqla yanaşı, mənanın inkişafı – genişlənmə və məna daralması kimi semantik proseslərdən asılı olaraq da baş verə bilir. Bu tipli proseslər üslubi imkanların meydana çıxmasına təkan verən amillərdəndir.

Epiqrafik mətnlərdə işlənən antroponimlər müxtəlif səpkili fon informasiyasına malik olması baxımından da səciyyələndirilə bilər. Bu keyfiyyət mətndə antroponimlərdən müqayisə və ya metafora kimi, eləcə də metonimiya və söz oyunu vasitəsi kimi istifadə etmək üçün şərait yaradır. Bəzən fərqli izah və əlavə məlumatlar verilsə də, haqqında bəhs olunan şəxsin adı gizli saxlanılır, məlumat dolayı yolla, işarə ilə çatdırılır:

"... Mehdiqulu xanın bağçasının təzə gülünü alicənablıq gülüstanından təzə qönçəni ölümün güclü küləyi Xəlilin gülzarından qopardı... " [Неймат М.С., 2011., s.108].

Xüsusi adların üslubi keyfiyyət qazanması bir çox hallarda onların daxili semantikasındakı emosionallıq və dəyərləndirmə amili ilə bağlıdır. Ümumi dəyərləndirmə xüsusiyyətlərinə görə insan adları müsbət və mənfi çalara malik olmaqla iki qrupa ayrılaraq fərqləndirilir [Жеребило Т.В., 2010., s.467]. Əzizləmə, incə münasibət, həssaslıq, qayğı, dostluq kimi münasibətlərin müəyyən göstəricilər vasitəsilə əksini tapdığı antroponimlər fərdi dəyərləndirməyə əsaslanmaqla subyektiv münasibət ifadə edir.

Mətndə işlənən antroponimlər diqqəti konkret obyektə yönəltməklə yanaşı, həm informativ keyfiyyətə malik olur, həm də mətndə dil vahidi vasitəsilə sosial-dəyərləndirmə ilə bağlı məzmunun ifadəsinə xidmət edir. Mətndə işlənən antroponimlər üslubi çalarlara malik olmaqla müəyyən münasibət, qiymətləndirmə, emosional təsir vasitəsi kimi çıxış edərək sosiomədəni işarə kimi zaman və məkan haqqında təsəvvürlərin formalaşmasında da xüsusi vasitə olaraq əhəmiyyəti ilə diqqəti cəlb edir. Antoponimlərin üslubi çalar qazanması müxtəlif şəkildə təzahür edə bilir. Belə metaforik transformasiyalardan biri kimi antroponimlərin temporal baxımdan məcazlamasını göstərmək olar. Temporal metonimik məcazlaşma obyektlər arasında zaman əlaqəsinin qurulması ilə bağlı meydana çıxır.

"Bu imarətin təzələnməsinə müsafirlər və ziyarətə gələnlərin düşməsinə hörmət göstərməkdən ötrü, ən əzəmətli *Xaqan Şah Abbas Hüseyninin* – Allah onun hakimiyyətini əbədiləşdirsin – *hakimiyyəti vaxtında*, əyanların başçısı Məhəmməd Şərif Şirvani Seyid Babanın səyi ilə 1122-ci il tarixdə əmr etmişdir" [Неймат М.С., 2011., s.94].

Bundan əlavə, antroponimlərin mətndə işlənmə xüsusiyyətləri ilə bağlı atributiv metonimiya da diqqəti cəlb edir: ad verilir və adın daşıyıcısının fəaliyyəti ilə bağlı məlumatlar nəzərdə tutulur.

Onomastik, eləcə də antropoloji konseptdə sosiomədəni məlumatın əks olunduğu semantik sahə nüvə və ya şaxələnmiş şəkildə əks olunur. Antroponimik konseptin nüvəsini bu sözlə bağlı ilkin və əsas məlumatlar, birbaşa məzmunla sıx əlaqə təşkil edir. Sözün lüğəvi mənası, şəxsin milli xüsusiyyətlərinə, məşğuliyyətinə işarə edən məlumatlar da bura daxildir. Birbaşa nüvə təşkil edən məzmundan uzaqlaşaraq meydana çıxan şaxələnmiş məlumatlar metaforik mənanın inkişafına və üslubi mütəhərrikliyin meydana çıxmasına səbəb olur. Adı daşıyan hər hansı şəxsin həyatı ilə bağlı məlumatlar, onun fərdi keyfiyyətləri, fərdin fəaliyyəti, cəmiyyətdə mövqeyi kimi məlumatlar məzmunun şaxələnərək üslubi çalarlar qazanmasına və fərqli işləklik keyfiyyətinin meydana çıxmasına şərait yaradır. Bu istiqamətlər antoponimin konnotativ potensialını əks etdirməklə onun dil sistemində törədicilik imkanlarını və söz yaradıcılığında rolunu da müəyyən etmiş olur.

Beləliklə, epiqrafik abidələrdə işlənən antoponimlər birbaşa funksiyası ilə yanaşı, qazandığı yeni məna çalarları hesabına üslubi keyfiyyət qazanaraq mətnin daha təsirli, məzmunlu və üslubi baxımdan rəngarəng olmasını – yeni üslubi effektin meydana çıxmasını təmin edən vasitə kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Бегматов Э. (1988). Оригинальные модели образования узбекской антропонимии //Проблемы азербайджанской ономастики. II. – Баку,
2. Гальперин И.Р. (2008).Текст как объект лингвистического исследования. М.: УРСС Эдиториал,
3. Горбаневский М.В. (1985). В мире имен и названий. М.: Знание,
4. Жеребило Т.В. (2010). Словарь лингвистических терминов. Назрань: ООО «Пилигрим»,
5. Кухаренко В.А. (1988). Интерпретация текста: Учеб. Пособие для студентов пед. Ин-тов по спец. №2103 «Иностр.яз.». М., Просвещение,
6. Линко Т. В. (1986). К вопросу исследования личных имён азербайджанцев Казахстана // Материалы конференции о проблемах азербайджанской ономастики. – Баку,
7. Неймат М.С. (2008). Корпус эпиграфических памятников Азербайджана. Том IV. Баку, Нурлан,
8. Неймат М.С. (2011). Корпус эпиграфических памятников Азербайджана. Том V. Баку, Элм и тахсил,
9. Пузырев А.В. Виды мотивированности поэтических собственных имен // Лексика русского языка, Рязань, 1999. С.43–50.

**Ulker IBRAGIMOVA**

## STYLISTIC PROPERTIES OF OWN NAMES IN EPIGRAPHIC MONUMENTS

### SUMMARY

The article talks about the stylistic properties of the epigraphic monuments of the Azerbaijani language. The study of the stylistic properties of epigraphic texts is relevant, as so far no research has been conducted in this direction. These studies are useful on the one hand for the study of historical stylistics in general, and on the other hand for the study of the linguistic properties of epigraphic texts. In the epigraphic texts, various stylistic methods are used: repetition, connotative interpretation, synonymy, antonymy and anthonasia of anthroponyms.

Thus, the anthroponyms observed in epigraphic texts along with the direct function with a stylistic coloring act as a means for the transfer of new stylistic effects.

***Key words:*** *stylistic properties, antonomasy, onyms, epigraphy, anthroponymic concept*

**Улькер ИБРАГИМОВА**

## СТИЛИСТИЧЕСКИЕ СВОЙСТВА СОБСТВЕННЫХ ИМЁН В ЭПИГРАФИЧЕСИХ ПАМЯТНИКАХ

### РЕЗЮМЕ

В статье говорится о стилистических свойствах эпиграфических памятников азербайджанского языка. Исследование стилистических свойств эпиграфических текстов является актуальным, так как до сих пор не проводились исследования в этом направлении. Эти исследования полезны с одной стороны для изучения исторической стилистики в целом, а с другой стороны для изучения лингвистических свойств эпиграфических текстов. В эпиграфических текстах используются разные стилистические приемы: повтор, коннотативное осмысление, синонимия, антонимия и антономасия антропонимов.

Таким образом, антропонимы наблюдаемые в эпиграфических текстах на ряду с прямой функцией имея стилистическую окраску выступают как средство для передачи новых стилистических эффектов.

***Ключевые слова:*** *стилистические свойства, антономасия, онимы, эпиграфика, антропонимический концепт*